# Bütöv Şərqə məxsus şəxsiyyət

**Böyük dövlət və ictimai-siyasi xadim, görkəmli yazıçı, dramaturq, bütün şüurlu həyatını doğma xalqının azadlığı uğrunda mübarizəyə həsr etmiş Nəriman Nərimanov olduqca enişli-yoxuşlu, çətin, əzablı, sözün həqiqi mənasında, siyasi vuruşlarla dolu bir həyat yaşamışdır. Bu böyük şəxsiyyətin keçdiyi ömür yolunu diqqətlə izləyəndə hər insana, mən deyərdim, hətta, hər dahiyə müəssər olmamış qətiyyət, mübarizlik, sonsuz cəsarət və dözümlülük, çarpışdığı ideya uğrunda geri çəkilməmək, qarşısında dayanan sal qayaya da meydan oxumaq, cəhdicidayə girmək, siyasi qılınc oynatmaq, dönməz prinsipiallıq cəhətləri bariz şəkildə görünür.**

Tarixi şəxsiyyət olmaq, tarixdə əbədi yaşamaq demə asan məsələ deyilmiş. Bütün bunları isə Nəriman Nərimanov bütün varlığından, canından da çox istədiyi doğma xalqı - Azərbaycan xalqı üçün etmişdir.

Vaxtı ilə, "Nəriman Nərimanov xalqçıdır" deyənlər zərrəcə də yanılmamışdılar. Ancaq həmin şəxslər unudurdular ki, öz xalqını, öz yurdunu sevmədən dünyanı, bəşəriyyəti sevmək olmaz…

Bir həqiqət də budur ki: Nəriman Nərimanov heç cür siyasi burulğanlara, tufanlara (siyasət həmfirlərinin, cığırdaşlarının vəfasız, dönük çıxmaları, deyə bilərik) baş əymədi, polad təki sınmaz oldu. O, belə yaşadı, belə tanındı. Ona naxələf çıxanlar oldusa da, xalq isə onu sevdi, ona arxalandı, onu unutmadı.

**Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci il aprelin 14-də Tiflis şəhərində azərbaycanlıların yaşadığı məhəllədə dünyaya göz açmışdır. Atası Kərbəlayi Nəcəf dövrünün tanınmış ziyalısı, maarifpərvər şəxs idi. Anası Həlimə xanım evdar qadın olsa da, mehriban, xoşxasiyyət, xeyirxah bir qadın idi.**

N.Nərimanov 1882-ci ildə Qori seminariyasına daxil olmuş, 1890-cı ildə seminariyanı bitirir. Gənc Nərimanın arzusu ali təhsil almaq idi. Ancaq atasının ölümü, böyük bir ailənin dolandırılması onun çiyinlərinə düşür. Bunun üçün o, Qori seminariyasını bitirdiyi il, yəni 1890-cı ildə Tiflis quberniyası Borçalı qəzasının Qızıl Hacılı kəndinə müəllim işləmək üçün təyinat alır.

O dövr olduqca təlatümlü, xalqların oyanışı, fəhlə sinfinin öz buxovlarını qırmaq üçün mübarizələrə atıldıqları dövr: Avropada başlayan kommunizm ideyaları Rusiyaya və onun ucqarlarından olan Qafqaza da gəlib çatmışdı. Burada da ziyalı gənclər kommunizm "kabusu"nun təsiri altına düşür, yeni yaranan siyasi təşkilatlara cəlb olunur, milli oyanışda iştirak etməyə çalışırdılar. Zamanın lokomotivi sürətlə hərəkət etdikcə dünya bütün sahələrdə - iqtisadi, siyasi, mənəvi, milli təfəkkürdə tarixdə görünməmiş dinamika yaradırdı.

**Belə bir vaxtda, çox erkən yaşlarından öz millətini, xalqını ürəkdən sevən gənc Nərimanın qarşısında, sonralar özünün dediyi kimi:** "Müsəlman kütlələrinin (bütün Şərqin - M.Q.) müstəsna avamlığı və geriliyi, öz ədəbi və ictimai işimlə bu kütlələri oyadıb, inqilaba hazırlamaq vəzifəsini mənim qarşıma qoyur".

Bu məqsədlə də o, 1891-ci ildə Bakıya gəlir. O vaxt, yəni XIX əsrin sonlarında Neft Bakısı geniş tərəqqi edir, böyüyür, neft qoxusu yaxından-uzaqdan bura sərmayəçiləri gətirdiyi kimi, həm də ucuz işçi qüvvəsini - fəhlə muzdur gətirirdi. Bunlar isə yaxın bir vaxtda Bakını inqiballar, siyasi görüşlər, yeni marksist partiyalarının yaranacağı şəhərə çevirəcəkdi. Başdan-ayağa milli tribuna olan Nərimana belə məkan lazım idi. Bu məkanda yeni ideyalarla, təzə fikir və istəklərə malik bir azərbaycanlı cavan başa düşürdü və görürdü ki, onun mənsub olduğu xalq hələ yeni təfəkkürə görə çox geridir. Məmləkətdə fanatizm, xurafat olduqca istedadlı xalqın əl-qolunu bağlayır, şüurunu dirçəltməyə imkan vermir. Deməli, ən əvvəl dahi Mirzə Fətəli Axudzadənin, Abbasqulu ağa Bakıxanovun maarifçilik ənənələrini yeni dövrə, zamana uyğun şəkildə geniş və hərtərəfli, cəsarətli iş görmək lazım idi. İlkin olaraq xalqın bəsarət gözünü açmaq, zamanın, əsrin dindirdiyi məsələlərdən xalqın hali olmağına səy göstərmək lazım idi.

Bununçun, 1894-cü ildə Bakıda müsəlman kütlələr üçün ilk xalq qiraətxanası təşkil etmiş, Şərq və Qərb ölkələrindən bura üçün qəzet, jurnal, kitablar, ədəbiyyat almışdır. Az bir vaxtda bu qiraətxana müsəlmanların ən çox üz tutduqları məkan olmuşdur. Bütün bunları N Nərimanov öz hesabına görürdü. Bu bir həqiqətdir ki, bu işlər o dövr üçün böyük milli hadisə idi. Elə bu dövrdə də o, bədii yaradıcılığa başlayır. Onun bədii əsərlərində dövrün ictimai problemləri öz əksini tapırdı. Bu illərdə yazdığı "Nadanlıq"



(1894), "Şamdan bəy" (1895, "Nadir şah" (1899), "Bahadır və Sona" (1896-1908) kimi əsərləri böyük Mirzə Fətəlinin xəlqilik və müasirlik prinsiplərinin davamı idi desək, heç də yanılmarıq.

Onun, o dövr Bakı həyatı olduqca dolğun və hərtərəfli olmuşdur. Belə ki, bədii əsərlərlə bərabər zamanın nəbzini tuta bilən publisistik məqalələr yazmış, N.B.Qoqolun "Müfəttiş" komediyasını dilimizə tərcümə etmişdir. Bunlarla kifayətlənməyən N.Nərimanov Azərbaycan və rus dillərini öyrənənlər üçün dərs vəsaitləri də hazırlayırdı.

Burada bir məsələni qeyd etməyə bilmərəm: N.Nərimanovun ilk bədii, publisistik və tərcümə əsərlərinin dili sadə, mənalı, təmiz Azərbaycan dilidir. Bu isə milliliyin, xəlqiliyin bariz timsalıdır. O vaxt Nərimanovla çiyin-çiyinə çalışan, yazan insanların - xüsusən ziyalıların dili qəliz, Osmanlı ləhcəsində yazıldığından xalq kütlələri onların yazdıqlarından bir şey anlaya bilmirdilər…

Əsl xalq adamı olan N.Nərimanov isə ömrünün sonuna kimi təmiz Azərbaycan dilində yazdı, yaratdı…

**N.Nərimanov 1900-cü ildə Azərbaycanın heç vaxt yaddan çıxmaz - xeyirxah insanı, böyük zəhməti hesabına mal-dövlət sahibi olmuş, təkcə öz doğma xalqının deyil, Azərbaycanda və onun uzaqlarında yaşayan müsəlmanların və həm də qeyri-müsəlman insanların missioneri Hacı Zeynalabdin Tağıyev haqqında dəyərli kitab yazır. Öz əsərində N.Nərimanov möhtərəm Hacını hamıya nümunə göstərərək yazırdı:** "Yaxşılıq insanın sərvətlərindən biridir. Ancaq bu sifətə tövr-bətövr mənalar verib anlayıblar. Məsələn: bir nəfər… çox çörəklidir, yəni evinə qonaq gələndə canu-dil ilə qulluq etməyə hazırdır… Bu şəxsə "yaxşı" deyirlər… Gecə və gündüz çalışıb dövlət qazanır ki… öləndən sonra övladı üçün çoxlu dövlət qoysun - buna deyərlər "yaxşı" adam idi… və nəinki dövlətli şəxs dövlətliyə yaxşılıq edir - onlar da bir-birinə "yaxşı" deyirlər… Gərək yuxarıda zikr olunan şəxslərin "yaxşılıqları" onlar üçün xudavəndli - aləmin safpakına tanımağa, yəni ona yavuq olmağa yol açırmı? Xeyir… Çox az vaxtdan sonra bunların adları nəinki qeyrilərinin və hətta öz övladlarının dillərinə zikr olunmur, çünki həmin şəxslər öz həyatlarında yaxşılıq etmişdilər, ancaq öz nəfsləri xoş olmaqdan ötrü".

**Sonra böyük ədib yazırdı:** "Hərgah bu biçarələr həyatlarında öz yaxşılıqlarını cəmaətə, millətə, dinə sərt etsəydilər, əlbəttə öləndən sonra onların adları cəmaətin, millətin və dindarların qəlblərində kök salıb bağı qalardı"… İnsanın xoşbəxtliyi onun həyatından sonra ismi hörmət ilə dillərlə zikr olmaqdadır. Bu mərtəbəyə çatmaqdan ötrü fədakarlıq lazımdır…"

**Sonra da müəllif əsas mətləbə belə başlayırdı:** "…Bu zati-möhtərəmlər hər əsrdə olublar, vardırlar və olacaqlar. Ümum-xeyirdən ötəri bu əsri-barizda insafımız rəva görmür ki, cənab Zeynalabdin Tağıyevi nəzərimizdən keçirtməyək, ta gələcəkdə millətin balaları bu cənabın millətə qeyrətini, vətənə məhəbbətini, insana himmətini və əhəmiyyətini, tarixdə oxuyub gözləri "rövşən və qəlbləri şad olsun".

Ötən əsrin əvvəlində N.Nərimanov Hacı Zeynalabdin haqqında yazanda yəqin ki, bu kitabın təsiredici gücünü görmək istəyirdi. Bu yazı ilə başqalarının da Hacıdan ibrət götürmələrini, xalq, milli, Vətən üçün nəsə etmələrini arzulayırdı. Yeri gəlmişkən onu da deyək ki, Hacının xeyirxahlığını N.Nərimanov da görmüşdü. Belə ki, N.Nərimanov 1902-ci ilin may-iyun aylarında ekstern qaydası ilə gimnaziyanı qurtarmaq haqqında kamal attestatı almış və həmin ildə Odessadakı Novorossiya Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Bir çox xaricdə oxuyan tələbələr kimi Nərimanovun təhsil xərcini də H.Z.Tağıyev ödəmişdir. O da bütün ömrüboyu Hacının bu yaxşılığını unutmamışdır.

N.Nərimanov 1920-ci ildə Azərbaycan SSR-də XKS-nin sədri olarkən Hacını bütün vasitələrlə qorumağa çalışmışdır. Hacının qızı Sara xanım 1992-ci ildə bu sətirlərin müəllifinə danışırdı ki, nə qədər N.Nərimanov Azərbaycandaydı bizə dəyib-dolaşan yox idi və həm də hər ay doktor bizə öz məvacibindən 25 manat (o vaxt bu, az pul deyildi) göndərirdi. Onu Moskvaya apardıqdan sonra bizim ailəyə də hücumlar başlandı.

N.Nərimanov XX əsrin əvvəllərindən inqilabçı kimi fəaliyyət göstərir. O, həqiqi marksist kimi xalqların, o cümlədən doğma xalqını, azadlığa, istismardan azad olunması üçün bu yolu seçmişdi. Hələ o vaxt o, deyirdi: "Mən hər cür istismara nifrət edirəm. 1904-cü ildə müsəlman zəhmətkeşləri arasında inqilabı iş aparmaq üçün "Hümmət" təşkilatı yaradılmışdır. İlk gündən bu təşkilatın ən fəal üzvlərindən biri N.Nərimanov idi. 1908-ci ildə N.Nərimanov universiteti bitirib Bakıya gəlir və şəhər xəstəxanasında işləməyə başlayır. Nərimanov əsl xalq həkimi idi, buna görə də milliyyətindən asılı olmayaraq zəhmətkeş kütlələr ona "bizim doktor" deyirdi.

1906-cı ildə N.Nərimanov RSFSR Proqramını Azərbaycan dilinə tərcümə etmiş və bu proqramın Azərbaycan və İran zəhmətkeşləri arasında yayır. O istəyirdi ki, onun xalqı və eləcə də müsəlman dünyası zamanın, dövrün oyanışa, tərəqqiyə, qollarındakı zəncirləri qırmaq məqamında qəflət dünyasında mürgüləməsinlər… Burada bir məsələni xüsusi qeyd etmək istəyirəm: N.Nərimanov haqqında danışılanda bir çoxu qeyd edirlər ki, o, həqiqi bolşevik olmuşdur. Ancaq, məncə, böyük zəka sahibi olan Nəriman əsl marksist olmuşdur. O, marksizmi, Marksın ictimai-siyasi ideyalarını düzgün anlayır və bu ideyaların həyata keçməsinə çalışırdı.

1906-cı ilin iyunun əvvəllərində Bakıda Azərbaycan müəllimlərinin 1-ci qurultayı keçirilir. Qurultayın rəyasət heyətində bir çox məmurlarla bərabər hələ o dövrdə "millət atası" sayılan H.Z.Tağıyev də əyləşmişdi. Azərbaycanda təhsillə bağlı xeyli çıxışlar olunur. Qurultayda o vaxt gənc tələbə olan Nəriman da çıxış edir. Onun çıxışı olduqca odlu-alovlu, inqilabi çıxış idi. Öz çıxışında bu gənc qeyd edir ki, çarizm yerlərdə xalqların dilinə, dininə, mənəviyyatına yuxardan baxır. Gənc tribun qeyd edir ki, necə ola bilər Bakıda gimnaziya və texnikumlarda dərs deyən türk müəllimləri bir-biri ilə öz dillərində danışa bilməzlər. Bu xalqa hörmətsizlikdir. Bu barədə çar cənabların özünə etirazımızı bildirməliyik.

**Rəyasət heyətində oturan Hacı Nərimana müraciətlə:**

- Ay oğul, fikrinizi deyin, sözüm yoxdur. Ancaq, bir qədər yumşaq şəkildə yazın. Hacının bu sözünə Nəriman çılğın şəkildə:

- Möhtərəm Hacı, biz daha sərt və cəsarətlə hakimiyyətə öz sözümüzü deməliyik. Biz də xalqıq, ot-ələf deyilik.

**Nərimanın belə cavabını gözləməyən Hacı acıqla deyir:**

- Bir buna bax, mənim pulumla xaricdə oxuyur, ancaq, mənim sözümün qabağında söz deyir.

**Nəriman geri çəkilmir. Hacıya üzünü tutub deyir:**

- Möhtərəm Hacı, bu gündən etibarən sənin pulun mənə lazım deyil. Mən minnətlə çörək yeyənlərdən deyiləm - bu sözləri deyib, o, qurultayı tərk edir.

Ancaq, Azərbaycan müəllimləri çar Nikolaya öz kəskin məktubu yazıb göndərirlər. Məktubun yazılmasında, həm də kəskin etirazla yazılmasında, əlbəttə ki, Nərimanın cəsarəti, üsyankarlığı öz sözünü deyir…

Hər ilin sentyabr ayında H.Z.Tağıyev öz hesabdarı (mühasibi) ilə oturub birlikdə xaricdə təhsil alan tələbələrin siyahısına baxırmışlar. Sonralar Hacının hesabdarı danışırmış ki, mən siyahını bir-bir oxuyur, Hacı diqqətlə dinləyir, təhsilini başa vurmamış tələbələrin yenidən siyahıda saxlanmasını deyirmiş.

**Siyahıda N.Nərimanovun adına çatanda hesabdar Hacının üzünə baxır və ürəyində də fikirləşir ki, yəqin ki, kişi, yəni Hacı "yox", "onu poz" deyəcək. Ancaq, Hacı Nərimanın adını deyəndə hesabdarın darıxdığını görüb deyir:**

- Nərimanı saxla, - sonra da əlavə edir, - bir qədər dəliqanlıdır. Ancaq sözlərində həqiqət var. Ordakılar bizlərə həqarətlə baxırlar Nərimanın savadına, qələminə söz ola bilməz. Cəsarəti də xoşuma gəlir. Onu hökmən saxla.

Bu, təbii ki, Hacı Zeynalabdin Tağıyevin böyük vətənpərvər ürəyindən xəbər verirdi…

Həmin illərdə N.Nərimanov Bakıda və Tiflisdə təkcə yazıçı, dramaturq, publisist, milli əqidəli, ziyalı yox, həm də ictimai mübariz, inqilabçı kimi tanınırdı. Mürtəce qüvvələr onu daban-dabana izləyirdilər. 1909-cu ilin martın 1-də o, inqilabi fəaliyyətinə görə Tiflisdə həbs edilib Metex qalasına salınır. 6 ay orada saxlanıldıqdan sonra Həştərxana sürgünə göndərilir. Az vaxt içərisində doktor Nəriman burdakı yerli müsəlmanlar içərisində ən sevilən, hörmət edilən bir şəxs olur. O vaxt Həştərxanda xeyli azərbaycanlı yaşayırdı. Azərbaycanlılar hər bir iş üçün dara düşəndə ona müraciət edirdilər.

N.Nərimanov 1913-cü ildə Kazanda olarkən Novruz bayramı ərəfəsində gəlmə və yerli müsəlmanların toplantısını keçirir. Məclisdəkilərdən biri təklif edir ki, bayramla əlaqədar kasıblara yardım etmək lazımdır. Doktor o dəqiqə dillənir: bu işi saxlamaq olmaz. Elə indi kimin nəyə gücü çatırsa buyurub əlini cibinə salsın və qoysun ortalığa? Doktorun bu sözlərindən sonra məclis üzvləri xeyli pul yığıb verirlər Zeynalabdin Səfərova. Yerli qəzet bu barədə yazırdı ki, Z.Səfərov da həmən pulu şəhərdəki imkansız müsəlmanlara payladı…

1913-cü ilin sonlarında Bakıya qayıdan N.Nərimanov 1914-cü ildə Qaraşəhər xəstəxanasında həkim kimi fəaliyyətə başlayır. Burada o, ədəbi-publisistik və inqilabi fəaliyyətini davam etdirir. 1917-ci ilin iyununda "Hümmət" təşkilatı komitəsinin sədri və RSDF (b)P Bakı komitəsinin üzvü seçilir. İyulun 3-dən onun redaktorluğu elə "Hümmət" qəzeti çıxmağa başlayır. 1917-ci ilin oktyabrında bolşeviklər tərəfindən şəhər dumasına, noyabr ayında Müəssisələr məclisinə namizəd göstərilir. 1918-ci il aprelin 25-də Bakıda və yalnız Bakıda daşnak S.Şaumyanın rəhbərlik altında Bakı Xalq Komissarlar soveti yaradıldıqda N.Nərimanova şəhər təsərrüfatı komissarlığı tapşırılır. İşə bir bax: N.Nərimanov kimi nəhəng bir şəxsə təsərrüfat komissarlığı tapşırılır, ancaq gəlmələr, həm də yerli xalqa xor baxan daşnak erməni S.Şaumyan BXKS-nin sədri və komissarlığın ən aparıcı komissarlığına P.Z.Caparidze, İ.T.Fioletov, Q.N.Korqanov, N.İ.Kolesnikova və s. seçilmişdilər. Bakı komissarlığında 10 komissardan yalnız üçü azərbaycanlı idi ki, onlara da aşağı vəzifələr verilmişdi. Belə ki, N.Nərimanov şəhər təsərrüfat komissarı M.S.Vəzirov torpaq komissarı, M.Ə.Əzizbəyov isə quberniya komissarı idilər.

Heç bir sosial bazası olmayan, Azərbaycan xalqı tərəfindən qəbul edilməyən, həqarətlə baxılan, cəmi 3 ay 5 gün ömür sürən Bakı Xalq Komissarlar Soveti biabırcasına dağıldı. Onun başçıları ingilislər tərəfindən həbs olunaraq Türkmənistanın Krasnovodski şəhərinə aparıldı və sentyabrın 20-də Ağcaqum çölündə elə ingilis ordusu tərəfindən güllələndilər. Ancaq N.Nərimanov xoş təsadüfdən, iyul ayında xəstələndiyindən Həştərxana getdiyindən ingilis gülləsindən uzaq oldu. Onun ürəyi ağrıyırdı. Ağrımaya da bilməzdi. Axı, 1918-ci ilin mart ayının 31-də ermənilərin Bakıda törətdikləri soyqırım vəhşilikləri doktorun gözləri qarşısında baş vermişdi. Hörmətli doktor onu da bilirdi ki, 31 mart Azərbaycanlıların erməni daşnaqları tərəfindən soyqırıma məruz qalmasında bolşevik cildinə girmiş, təkcə azərbaycanlılara deyil, bütün türklərin, müsəlmanların qatı düşməni, türklər tərəfindən tayqulaq edilmiş vəhşi Androniklə sıx əlaqədə olan S.Şaumyanın saman altından su yeritməsi həlledici olmuşdu. Onu da deyək ki, erməni daşnakları bu qətliam-soyqırımını təkcə Bakıda deyil, demək olar ki, məmləkətimizin hər yerində - Şamaxıda, Gəncədə, Şuşada, Lənkəranda və s. həmçinin Cənubi Azərbaycanın bir çox vilayətlərində qırğınlar, qətliamlar törətdilər…

**Bütün bunlar isə həssas qəlbli, vətənsevər, xalqsevər doktor Nərimanın ürəyində, qəlbində, ruhunda dərin izlər buraxmaya bilməzdi. Bu böyük şəxsiyyət onu da yaxşı bilirdi ki, quldur Şaumyanın dəyirmanına sutökənlər, ona silah, pul verənlər, ideya verənlər Moskvada yüksək işbaşında oturanlardır. Və həmin adamlara N.Nərimanov sonralar öz sözünü deyəcək, onların mənfur siyasətlərini ifşa edəcəkdi.**

Həştərxana gəldikdən az sonra Həştərxan icraiyyə komitəsi maarif şöbəsinin müdiri vəzifəsində çalışır. Burada, yerli əhalinin əksəriyyətini təşkil edən müsəlmanların maariflənməsi üçün əlindən gələni edir. Doktor insanların təkcə maariflənməsi üçün çalışmırdı. O, insanların öz haqları uğrunda mübarizə aparmağı da onlara təlqin edirdi. 1919-cu ilin yanvarında N.Nərimanov Həştərxanda Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar seçilir. Həmən ilin iyulunda işləmək üçün moskvaya çağırılır, RSFSR Xalq Xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri təyin edilir. Bu, əlbəttə təsadüfi deyildi, başda V.İ.Lenin olmaqla hamı yaxşı bilirdi ki, Şərqi - müsəlman dünyasını Nərimanovdan yaxşı bilən yoxdur. Az sonra o, həm də RSFSR Xalq Milli İşlər Komissarının müavini işləyir. Burada işləyərkən Moskvanın, şərqdəki siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. V.İ.Lenin Şərq barəsində başlıca məsələlər haqqında Nərimanovun mülahizələrinə böyük diqqət verirdi. Buna görə də Lenin tapşırıq vermişdi ki, Şərq məsələsində hər hansı məsələ ortaya çıxanda əvvəlcə yoldaş Nərimanovla məsləhətləşin. Çünki, Şərqi yoldaş Nərimanov bizim hamımızdan yaxşı tanıyır. Leninlə görüşlərində doktor ona Şərq xalqlarının milli xüsusiyyətlərindən, adət-ənənələrindən, öz dinlərinə möhkəm bağlı olduqlarından danışardı. Bu demək idi ki, Şərqə sosializm ideyaları ilə gedəndə xalqın milli, dini, əxlaqi xüsusiyyətləri nəzərə alınmalıdır, həm də çox həssaslıqla. Xatirələrdə göstərilir ki, növbəti görüşlərinin birində Nərimanov Leninə deyir ki, Vladimir İliç bizlərdə belə bir adət var: əgər, tutaq ki, 20 yaşında bir gəlinin əri ölürsə, əgər onların bir uşağı varsa, o gəlin bir daha ərə getmir, ailə qurmur, həyatını uşağına həsr eyləyir. Bunu eşidən Lenin deyir:

- Bu ola bilməz. 20 yaşlı gəlin, bu ki, lap gəncdir.

- Bizlərdə belə adətlər vardır - deyə doktor Lenini inandırır.

Şərq psixologiyasını, Şərq düşüncə tərzini bilmədən Şərq insanları ilə dil tapmaq qeyri-mümkündür. Deməli, Şərq dünyasını, Şərq xalqlarını oyatmaq, onları müstəmləkə boyunduruğundan, zülmündən xilas olmaq yolununun onlara təlqin etmək çox böyük həssaslıq tələb edirdi. O vaxt, demək olar ki, bütöv Şərq Avropa müstəmləkəsi altında əsirlər idi ki, zarıyırdı. N.Nərimanov o vaxt təkcə öz xalqını yox, bütün Şərqi düşünürdü. O vaxt o, Şərq xalqlarını oyatmaq, onları hər cür zülmə qarşı qaldırmaq yollarını düşünür, araşdırırdı…

1920-ci il aprelin 25-də Zaqafqaziya müsəlmanlarının işləri ilə məşğul olan şöbənin fəaliyyətini gücləndirmək məqsədilə Nərimanov Qafqaza göndərilir və Leninin göstərişi ilə ona Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar vəzifəsi tapşırılır.

N.Nərimanov Həştərxandan Moskvaya çağırılan gündən başa düşmüşdü ki, Sovet Rusiyası və onun başçısı, Lenin Bakını əldən verməyəcəkdir. 1917-ci il Rusiyada baş vermiş fevral inqilabından dərhal sonra, eləcə də 1918-ci ilin mayında yaradılmış milli hökumət - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Avropanın demək olar ki, bütün ölkələri, okeanın o tərəfində olan ABŞ Bakı neftinə sahib olmaq üçün yollar axtarırdılar…

**1920-ci il martın 17-də, o vaxt Qafqaz cəbhəsinin komandiri Q.Orconikidzeyə gizli şifrə ilə göndərdiyi teleqramda Lenin göstəriş vermişdi:** "Bakını almaq bizə olduqca və olduqca zəruridir… Bütün səylərinizi buna verin…"

Əgər başqa cürə olsaydı Rusiya bolşevikləri Bakı neft mədənlərini oda qalayardılar…

Az sonra - aprelin 27-də XI Qırmızı Ordu Azərbaycan Respublikasının ərazisinə soxuldu. Qırmızı ordunun zirehli, qatarı aprelin 28-də Bakıya daxil oldu. Beləliklə, Bakı işğal edildi və bütün Azərbaycanın işğalına başlandı. Zirehli qatarda G.Orconikidze, S.Kirov, A.Mikoyan və bir neçə nəfər onlara züy tutanlar da gəlmişdilər. Bu üçlük hardansa duymuşdular ki, Azərbaycan İnqilab komitəsinin sədrliyinə V.İ.Lenin N.Nərimanovu nəzərdə tutub. Tələsik olaraq, onlar - G.Orconikidze, S.M.Kirov və daşnak A.İ.Mikoyan Leninə təcili və həm də gizli şifrə ilə teleqram vururlar ki, bəs Bakıda yeni hakimiyyət onların ixtiyarına verilsin. Görünür Lenin onları da, Nərimanovu da mükəmməl tanıyırmış və kimin də hansı yuvanın quşu olduğunu da bilirmiş… Leninin bu hərəkətini təqdir etməyə dəyər. 1920-ci il aprelin 27-də Azərbaycanda Sovet hakimiyyətinin qurulması ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin Sədri seçilir. Mayın 16-da o, xüsusi qatarla Moskvadan Bakıya gəlir və Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sədri kimi fəaliyyətə başlayır.

A.Mikoyan və onun yoldaşları təşvişə düşdülər. Çünki xalqımıza bu yad ünsürlər Nərimanov Bakıya gələnə qədər - 15-16 gün ərzində Azərbaycanı başdan-başa qarət edir, günahı oldu-olmadı insanları, əlbəttə ki, türkləri sağa və sola güllələyirdilər. O günlər Nərimanovun yerli xalq kütlələri arasında böyük hörmət və nüfuzunu görən Mikoyan demişdi: "Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin…" Ancaq daşnak Mikoyan istədiyinə nail ola bilmədi, ona görə ki. Nəriman - Nəriman idi…

Bakıya gələn kimi şəhərdəki işlərlə tanış olan Nərimanov məsələ qoyur ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kimi güllələnməsin.



**O vaxt əsas məsələlərdən biri o idi ki, "Azərbaycan Respublikası müstəqil yaşamalı, yaxud tər-**

## Nəriman Nərimanov - 150

**kib kimi Sovet Rusiyasına daxil olmalıdır?" Bu məsələdə milli idraksızlıq göstərən insanlar da az deyildi. Məsələn, MK üzvləri Ə.Qarayev, M.D.Hüseynov və b. … belə bir fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyil, biz Azərbaycanı Rusiyaya birləşdirməliyik. Nərimanov isə Azərbaycanı Müstəqil Azərbaycan Respublikası kimi görürdü və istəyirdi. O, Azərbaycanın müstəqillik barədə Leninlə də cəsarətlə söhbət aparmış və Lenin doktorun fikrini və arzusunu bəyənmişdi. Bu barədə sonralar Orconikidzeyə də qətiyyətlə bildirmişdi: "Azərbaycan Respublikası … müstəqil olmalıdır…"**

N.Nərimanov tutduğu vəzifədən asılı olmayaraq həmişə möhkəm əqidəli beynəlmiləlçi (buna bəşərilik də demək olar) və dönməz, alovlu vətənvərpər idi. Onun üçün beynəlmiləlçilik və vətənpərvərlik bir-birindən ayrılmaz və obyektiv prosesdir. Bu isə o dövrdə Sovet İttifaqının inkişafı, Sovet adamlarının tərbiyəsi üçün əsas şərt idi. Ancaq Azərbaycanda yaranmış ağır vəziyyət üçün doktor çox narahat idi. O görürdü ki, xalqın dilinə, dininə, adət-ənənəsinə xor baxılır, milli kadrlar bütün sahələrdən uzaqlaşdırılır, işlərə ruslar, ermənilər yerləşdirilir. Sürətlə ruslaşma siyasəti aparılır. 1921-ci ilin yayında Azərbaycan K(b)P MK-nın 1-ci katibi vəzifəsinə S.M.Kirovun gəlməsi milli məsələdə dərin sapmalara səbəb oldu.

Milli məsələdə federalizm prinsipləri mövqeyində duran Nərimanov, S.M.Kirovun, G.K.Orconikidzenin, M.L.Hüseynovun, L.Mirzoyanın, A.Mikoyanın, Ə.Qarayevin, R.Axundovun Azərbaycana müstəqillik lazım deyil. O, muxtariyyət kimi RSFSR-in tərkibinə daxil olmalıdır.

**Bütün bunlar göstərir ki, o vaxt, bu milli qayəli insan N.Nərimanov bu daxili və xarici qüvvələrə qarşı necə çarpışmalı olurdu. Bu böyük insanı narahat edən məsələlərdən biri də "yeni ictimai quruluş" adı ilə xalqın milli hisslərin kobudcasına tapdalanmağa başlanması idi.**

Yuxarıda dediyimiz kimi, 1921-ci ilin yayında Azərbaycan partiya təşkilatına rəhbərlik S.M.Kirova həvalə edilən dən sonra respublikanın bütün dövlət aparatında gəlmələr - ermənilər, ruslar çoxluq təşkil etməyə başladılar. Yerli xalqa, onun adət-ənənələrinə yad baxışlar yarandı. Rəhbərlikdə olan azərbaycanlılar da təsir altına düşdülər, bir çox məsələlərdə öz xalqına biganə oldular, onlarda kommunist əqidəsi milli təəssübkeşliyə üstün gəlirdi. Çoxu S.İ.Kirovun, S.Orconikidzenin, İ.Stalinin təbliğatına uyaraq, başdan-ayağa milli, xəlqi olan N.Nərimanova qarşı çıxdılar, ona böhtanlar atdılar, onu "xalqçı" adlandırdılar. Doğrudur, Nərimanov da bolşevik idi, lakin təmiz əqidəli, beynəlmiləlçi bir şəxsiyyətdi. O öz doğma xalqını sevir, onun dilinə, adət-ənənələrinə hörmət edirdi. Nərimanov həqiqi sosializmin carçısı idi, bütün şüurlu həyatını vətəninin azadlığı, xoşbəxtliyi uğrundakı mübarizəyə həsr etmişdi. Ancaq… çox-çox sonralar başa düşdü ki, aldanıb. Onda da artıq gec idi. O öz xalqını, vətənini təkcə özgələrindən yox, həm də öz aramızdakı dünyagirlərdən, mənsəbpərəstlərdən qorumalı olurdu…

N.Nərimanov islam dininə münasibətdə də obyektiv mövqedə idi. O, mövhumatın, fanatizmin qəti düşməniydi, ancaq bütövlükdə dinin əleyhinə çıxmırdı, dindarlara hörmətlə yanaşır, təbliğat işində inandırma metoduna üstünlük verirdi.

Ateizm dalğasının viranediciliyini duyan bu böyük insan və həqiqi inqilabçı müsəlmanları müdafiəyə qalxdı. N.Nərimanov hələ 1918-ci ildə Həştərxanada müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncağındakı nitqində tövsiyə edirdi ki, müsəlman xalqları arasında ateizm təbliğatı aparılarkən yerli şərait nəzərə alınmalı, tam ehtiyatla hərəkət etməli və xalqın adət-ənənələrinə hörmət edilməlidir.

Görünür, N.Nərimanovun bu mövqeyi qeyri bolşevikləri, elə lap Leninin özünü də bu sahədə ehtiyatlı olmağa sövq etmişdi. Belə ki, 1921-ci ilin martında RK(b)P MK-nın müsəlmanlar yaşayan vilayətlərin partiya təşkilatlarına müraciəti işlənib hazırlanarkən V.İ.Lenin milli ucqarlarda ateizm təbliğatında N.Nərimanovun təklif etdiyi metod və formaları nəzərə almağı tapşırmışdı.

**Sovet hakimiyyəti qələbə çaldıqdan sonra Rusiyada və həmçinin digər yerlərdə Qərbə həddən ziyadə aludəçilik meylləri vardı. Şərq bir növ kölgədə qalmışdı.**

*(Ardı var)*

**Musa QULUZADƏ,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru, Əməkdar müəllim**